**Çilənay Ramiz qızı HACIMAHMUDOVA**
Western Caspian Universty Magistr
E-mail:chacimahmudova@gmail.com

# DAVAMLI VƏ DAYANIQLI İNKİŞAF SAHƏSİNDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ MÜASİR VƏZİYYƏTİ

**Xülasə**

Bu məqalədə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığının müasir vəziyyəti və davamlı inkişaf sahəsində əldə etdiyi irəliləyişlər analiz edilmişdir. Davamlı və dayanıqlı inkişaf, bütün dünya ölkələrinin qarşısında duran əsas qlobal çağırışlardan biridir. Bu yalnız iqtisadi və ekoloji məsələləri deyil, həmçinin sosial və humanitar məsələləri həll edir.

Azərbaycan beynəlxalq aləmdə müstəqil və etibarlı tərəfdaş kimi çıxış edərək, davamlı inkişafın təşviqinə yönəlmiş bir çox qlobal təşəbbüslərdə iştirak etmişdir və hal-hazırda bunu davam etdirir.

İşin yazılması zamanı davamlı və dayanıqlı inkişaf sahəsində Azərbaycanın Beynəlxalq təşkilatlarla əməkdaşlığından geniş bəhs edilmişdir. Beynəlxalq təşkilatların və Azərbaycanın davamlı və dayanıqlı inkişaf barədə töhvələrinə yer verilmişdir. Məqalə Ali Təhsil Müəssisələrinin iqtisadiyyat sahəsində oxuyanlar üçün nəzərdə tutulmuşdur.

**Açar sözlər:** beynəlxalq əməkdaşlıq, davamlı inkişaf, beynəlxalq təşkilatlar

**JEL:** C82
**UOT**: 33
**DOI:** https://doi.org/ 10,54414/MQVQ4766

## Giriş

Davamlı və dayanıqlı inkişaf XXI əsrin ən geniş və ən vacib müzakirə edilən qlobal prioritetlərindən birirdir. Bu konsepsiya ekoloji balansın qorunması, iqtisadi inkişafın təmin ediməsi və sosial ədalətin bərqərar olunması prinsiplərinə əsaslanır.

Təbii resursların tükənməsi,qlobal istiləşmə, yoxsulluq, ekosistemin pozulması və sosialbərabərlik kimi məsələlər, yalnız bir ölkənin və ya cəmiyyətin, dövlətin həə edə biləcəyi problemlər deyildir.

Bu səbəbdən də, davamlı və dayanıqlı inkişaf sahəsində beynəlxalq əməkdaşlıq böyük əhəmiyyət kəsb edir.Onu qeyd etmək lazımdır ki, davamlı inkişaf yalnız ekoloji cəhətdən uyğunluqla məhdudlaşmır, həmçinin sosial tərəqqini və iqtisadi vəziyyəti nəzərə alaraq gələcək nəsillərin ehtiyaclarını təmin etməyə yönəlmişdir.

Azərbaycan 1991-ci il müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq səviyyədə müxtəlif təşkilatlarla əlaqələrini gücləndirmişdir.Ölkənin inkişafı üçün mühüm olan davamlı inkişaf prinsiplərinin tətbiqi, həmçinin beynəlxalq əməkdaşlıq Azərbaycan hökümətinin önəm verdiyi məsələlərdən biridir. Azərbaycan 2015-ci ildə BMT-nin Davamlı İnkişaf Məqsədlərini (DİM) qəbul etmişdir. Bu, Azərbaycanın iqtisadi,social və ekoloji sahələrdə dayanıqlı inkişafı təşviq etməyə yönəlmiş beynəlxalq öhdəliklərinin əsasını təşkil edir.

Davamlı inkişafın hədəflərinə çatmaq üçün müxtəlif ölkələrlə əməkdaşlıq etmək önəmlidir. Çünki dünya üzrə olan bu problemlərin tək bir ölkənin həll etməsi çox çətin bir məsələdir. Əsasən resursların davamlı istifadəsi, iqlim dəyişiklikləri ilə mübarizə, təhsilin və innovasiyanın inkişafı və yoxsulluq, sosial bəarbərsizlik sahələrində beynəlxalq əməkdaşlıq önəmlidir.

BMT, Azərbaycanın beynəlxalq əməkdaşlıqda əsas tərəfdaşıdır. Ölkə BMT-nin müxtəlif proqram və fondları ilə əməkdaşlıq edərək, xüsusilə iqtisadi inkişaf,səhiyyə,təhsil və ətraf mühitin qorunması sahələrində bir sıra layihələr həyata keçirmişdir. Azərbaycan, BMT-nin "Davamlı İnkişaf Məqsədləri"nin həyata keçirilməsi istiqamətində həm regional, həm də qlobal səviyyədə fəal iştirak edir.

2016-cı ildə Azərbaycan, BMT-nin 2030-cu ilə qədər davamlı inkişaf məqsədlərinə çatmaq üçün beynəlxalq təşkilatlarla birgə fəaliyyətini genişləndirmək məqsədilə "Azərbaycanın Davamlı İnkişafın Təşviqi üzrə Milli Fəaliyyət Planı"nı qəbul etmişdir. Bu, plan ölkənin inkişafının sosial, ekoloji və iqtisadi cəhətlərini birləşdirən bir çərçivə təqdim edir. [1.s26]

Bundan başqa Azərbaycan Avropa İttifaqı ilə də iqtisadi və siyasi əməkdaşlıq sahəsində sıx əlaqələr qurmuşdur. Aİ ilə əməkdaşlıq, Azərbaycanın qlobal bazarda dayanıqlı inkişafı təşviq etmək, enerji təhlükəsizliyini artırmaq və ətraf mühitin qorunmasına dair tədbirlər görmək məqsədini daşıyır.

2016-cı ildə Aİ ilə "Avropa qonşuluq çərçivəsində" "Davamlı İnkişafın Təşviqi üzrə Əməkdaşlıq"proqramı çərçivəsində müsbət nəticələr əldə edilmişdir. Bu əməkdaşlıq Azərbaycanın enerji sahəsindəki inkişafını daha dayanıqlı və ekoloji cəhətdən uyğun bir şəkildə həyata keçirməyə kömək etmişdir.

Dünya Bankı Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrində dayanıqlı inkişafının təmin edilməsi məqsədilə maliyyə və texniki dəstək verməkdə mühüm rol oynayır. Azərbaycan Dünya Bankı ilə bir çox layihə həyata keçirmiş xüsusən kənd təsərrüfatı, ekoloji bərpa və su təchizatı sahələrində müsbət nəticələr əldə etmişdir.

Azərbaycan Dünya Bankı ilə əməkdaşlıq edərək ətraf mühitin qorunması, təbii sərvətlərin idarə edilməsi və şəhərsalma məsələlərində beynəlxalq təcrübələrdən faydalanmağı məqsəd qoyur. Bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr,Azərbaycanın qlobal dayanıqlı inkişaf məqsədlərinə yaxınlaşmasına şərait yaradır. [3.s45]

Azərbaycan təkcə beynəlxalq təşkilatlarla deyil, həmçinin regional təşkilatlarla da əməkdaşlığını genişləndirmişdir.Avrasiya regionunda yerləşən Azərbaycan "Şanxay Əməkdaşlıq Təşkilatı" və "Türk Dövlətləri Təşkilatı" kimi regional qurumlarla da əməkdaşlıq edərək, iqtisadi inkişaf və dayanıqlı inkişaf məsələlərində birgə tədbirlər həyata keçirir. Bu əməkdaşlıq Azərbaycanın regional iqtisadi inteqrasiyasını təşviq edir və qlobal inkişaf məqsədlərinə nail olmaqda mühüm rol oynayır.

Azərbaycanın enerji siyasəti qlobal inkişafın dayanıqlı prinsipləri ilə uyğunlaşdırılır. Xüsusilə alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin artırılması, ekoloji təhlükəsizlik və enerjinin səmərəli istifadəsi istiqamətində beynəlxalq əməkdaşlıq davamlı inkişafın əsas prioritetlərindən biridir. Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının qlobal bazara çıxarılması həm ölkənin, həm də regionun iqtisadi inkişafına mühüm təsir göstərir.

Azərbaycanda qeyd etdiyimiz kimi enerji və geostrateji mövqeyi sayəsində beynəlxalq iqtisadi əməkdaşlıq mühüm rol oynayır. Xüsusilə, "Cənub Qaz Dəhlizi" və "Bakı-Tbilisi-Ceyhan" neft kəməri olan böyük layihələri qeyd edə bilərik. Bu layihələr ölkənin beynəlxalq tərəfdaşlıq əməkdaşlığını daha da gücləndiri. Onu da qeyd etməliyik ki, bu layihələr Azərbaycanı Avropa bazarına daha da yaxınlaşdırır və ölkənin enerji təhlükəsizliyinə çox müsbət təsir göstərir.

Azərbaycanın xüsusilə neft və qaz istehsalı sahəsində fəaliyyəti onu beynəlxalq əməkdaşlıq sektorunda mərkəzi yer tutmasına şərait yaradır. Ona görə də, Azərbaycan enerji resurslarını dünya bazarına çıxaran mühüm bir tranzit ölkəsi kimi fəaliyyət göstərir. Bu səbəbdən Azərbaycan beynəlxalq şirkətlər və müxtəlif ölkələrlə fərqli enerji layihələri həyata keçirir. Buna misal kimi, Avropa İttifaqı və Azərbaycanın enerji təchizatı və tranzit sahəsində güclü əməkdaşlığını qeyd edə bilərik.

Dayanıqlı inkişaf və ətraf mühitin qorunması prinsiplərinə uyğun olaraq, Azərbaycan beynəlxalq əməkdaşlıq vasitəsilə bərpa olunan enerji sahəsində də irəliləyişlər əldə etməyə çalışır. Bu sahədəki beynəlxalq tərəfdaşlıqlar ölkəyə yeni texnologiyaların tətbiqi və innovativ həllərin tapılması imkanə yaradır. [4.s88]

Bütün qeyd olunanlardan başqa Azərbaycan özünün regional və beynəlxalq təhlükəsizlik məsələlərindəki mövqeyini möhkəmləndirmək üçün müxtəlif beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir. Bu tərəfadaşlıqlardan NATO ilə ona əməkdaşlığı misal göstərə bilərik. Belə ki, Azərbaycan NATO ilə tərəfdaşlıq münasibətlərini inkişaf etdirir və beynəlxalq sülhə töhfə verir. Bu məqsədlə də müxtəlif beynəlxalq sülhməramlı missiyalarda iştirak edir. Həmçinin regiondakı sabitliyin qorunması məqsədilə ATƏT (Avropa

Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı), BMT və digər beynəlxalq təşkilatlarla birlikdə fəaliyyət göstərir.

Ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri, Dağlıq Qarabağ münaqişəsi kimi regional təhlükəsizlik məsələlərində də mühüm rol oynayır. Beynəlxalq hüququn və ədalətin təmin edilməsi Azərbaycanın tərəfdaşları ilı birgə fəallığı baxımından önəmlidir.

Digər beynəlxalq əməkdaşlıq çərçivəsində ən mühüm sahələrdən biri də mədəniyyət və təhsildir. Bu sahədə Azərbaycan UNESCO- la mədəni irsin qorunması və təhsil sahəsində beynəlxalq əməkdaşlığın aparılmasına önəm verir. Onu da qeyd etməliyik ki, Azərbaycan xarici tələbələrin təhsili və beynəlxalq universitetlərin fəaliyyəti ilə bağlı digər dövlətlərlə arasındakı mədəni əlaqələri gücləndirir.

Təhsil sahəsindən başqa Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla idman və mədəniyyət sahəsində də əməkdaşlıq edir. Xüsusən də, idman sahəsində beynəlxalq tədbirlərin təşkilində fəal iştirak edir. Misal olaraq, 2015-ci ildə Bakı şəhərində keçirilmiş Avropa Oyunlarını göstərə bilərik. Bu tədbir Azərbaycanın idamn tədbirlərinin təşkili və beynəlxalq mədəniyyət sahəsindəki nüfuzunu artırdı.

Qara dəniz və Xəzər dənizinin arasında yerləşən bir ölkə olaraq, Azərbaycanın mövqeyi ticarət və nəqliyyat dəhlizləri üçün strateji əhəmiyyətə malikdir. Bu baxımdan ölkə Avropa və Asiya arasında əlaqə qurulmasına yönəlmiş layihələrdə iştirak edir. Həmçinin ölkə Çinin “ Bir Kəmər Bir Yol” təşəbbüsü ilə sız əməkdaşlıq içərisindədir. Bu iqtisadi əməkdaşlıqla yanaşı, eyni zamanda sosial bərabərliyin təmin olunmasına və ətraf mühitin qorunmasına xidmət edir. [7.s97]

Son beş ilə nəzər salsaq müşahidə edə bilərik ki, Azərbaycan 2030 gündəliyinə çox önəm verir və ona nail olmaq istiqamətində olan sadiqliyini nümayiş etdirib. Buna misal olaraq Azərbaycan Respublikasının Prezidentinin 2016-cı ildə əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərmanı imzalaması aiddir. Bunun əsas səbəbi BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçündür. Həmçinin Azərbaycan MAPS (2030 Gündəliyi naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirən ilk ölkələrdən biri olub. MAPS DİM-ləri milli səviyyədə sürətləndirmək üçün atıla biləcək konkret proqramlaşdırma və siyasət addımlarını əks etdirən missiya hesab olunur. Azərbaycan öz təcrübəsini 2018-ci ildə keçirilən Dayanıqlı İnkişaf üzrə Bakı Formunda təqdim edib.

Keyfiyyətli statistika toplamaq, ölkənin statistika məlumatları sahəsində potensialını gücləndirmək üçün BMT heç kimin kənarda qalmamasına diqqət etməklə onlara davamlı dəstək göstərməkdədir.

Beynəlxalq əməkdaşlıq sahəsindəki mühüm istiqamətlərdən biri də Azərbaycanın inkişaf və humanitar yardım proqramlarıdır. Ölkəmiz müharibə və təbii fəlakətlərdən zərər çəkmiş ölkələrə yardım sahəsində fəal iştirak edir.

Bütün bunları nəzərə alaraq Azərbaycan inkişaf etməkdə olan ölkələrlə birlikdə inkişaf layihələri həyata keçirərək onların iqtisadi və sosial inkişafına töhfə verir.

Keçdiyimiz illərə nəzər salsaq, təhsilin inkişafında da mühüm addımların atıldığını müşahidə etmiş olarıq. Təhsilin maddi-texniki təminatı və normative hüquqi bazası təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Həmçinin Azərbaycan Respublikası Prezidentinin bu sahədə sərəncamları da geniş tədbirlər həyata keçirməyə imkan verir. Buna misal olaraq, müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın təhsil obyektlərində təmir-bərpa işləri aparılmış və məktəb binası tikilmişdir.

Davamlı İnkişaf Konsepsiyasının mahiyyəti dərin elmi-praktik qiymətləndirilməsi əsasında xarakterizə olunur:

- Yeni neft strategiyası ölkədə yüksək səmərəli neft sektorunun yaradılmasını və rəqabət qabiliyyətli subyektə çevrilməsini təmin edir.
- Konkret nəticəyə hədəflənmək və kompleks inkişafın təmin olunması Heydər Əliyevin siyasəti nəticəsində yönəlmişdir.
- Dayanıqlı və davamlı inkişaf, ölkədəki sabitliyin və tarazlığın Azərbaycanı digər ölkələr arasında lider dövlətə çevirmişdir.

“Azərbaycan Respublikasının Ekoloji Konsepsiyası” tərtib edilərkən Azərbaycan dövlətinin ekoloji strategiyası müəyyənləşdirilmişdir.

Bu konsepsiyanın davamı olaraq 1998-ci ildə "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı" Azərbaycan Respublikası tərəfindən qəbul edilmişdir. Bunun davamı olaraq 1999-cu ildə Bakıda Xəzər Ekoloji Mərkəzi yaradılmışdır. Milli Məclis 199-cu ildə "Ekoloji Təhlükəsizlik haqqında" Qanun və 2000-ci ildə isə "Ətraf mühitin mühafizəsi" və " Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" daha iki Qanun qəbul olunmuşdur.

Ətraf mühitin mühafizəsi sahəsində 1997-2000-ci illərdə Gürcüstan, Norveç, Qazaxıstan, Türkiyə, Moldova, Rusiya Federasiyası, Dağıstan Respublikası ilə birgə saziş imzalanmışdır. Bunlardan başqa Avropa Energetika Xartiyasının Protokolu imzalanmışdır. [9.s117]

Həmçinin işğaldan azad olunmuş ərazilərimizdə də davamlı və dayanıqlı inkişaf strategiyası aparılır. İşğaldan azad edilmiş ərazilərimizdə əvvəlki dövrlərdə olduğu kimi təhlükəsiz yaşamaq təmin edilməlidir. Eyni zamanda bu ərazilər ölkənin abad guşələrinə çevrilməlidir. Bunun üçün də digər ölkələrlə əməkdaşlıq etmək, onların yeni texnika və texnologiyalarından, strategiyalarından və ixtisaslı kadrlarından istifadə etmək və təcrübə qazanmaq mühüm yer tutur.

**Nəticə**

Azərbaycan beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edərək davamlı və dayanıqlı inkişafın təşviqinə mühüm töhfələr verir. BMT, Avropa İttifaqı, Dünya Bankı və digər beynəlxalq qurumlarla əməkdaşlıq Azərbaycanın qlobal səviyyədə iqtisadi,sosial və ekoloji dayanıqlılıq məqsədlərinə doğru irəliləməsinə imkan yaradır. Ölkə davamlı inkişaf məqsədlərini reallaşdırmaq üçün beynəlxalq təcrübə və resurslardan faydalanaraq daha dayanıqlı və inkişaf etmiş bir gələcək qurmaq istiqamətində əhəmiyyətli addımlar atmağa davam edir. Bu əməkdaşlıq həmçinin Azərbaycanın regional və beynəlxalq münasibətlərinin möhkəmlənməsinə iqtisadi və sosial inkişafının davamlı olmasına təkan verir.

Gələcəkdə Azərbaycan bu əməkdaşlığı daha da gücləndirərək həm regional, həm də qlobal miqyasda davamlı inkişafın təşviqində lider rolunu oynamağa davam edə bilər. Bu əməkdaşlıq həmçinin ölkənin beynəlxalq nüfuzunu artırmağa, mövcud təcrübələrdən faydalanmağa və dünya miqyasında dayanıqlı inkişaf prinsiplərinin tətbiqinə qatqı qatmağa imkan verir.

Nəticə olaraq deyə bilərik ki, davamlı inkişaf sahəsində fəaliyyət yalnız beynəlxalq təşkilatlar və hökumətlərlə məhdudlaşmır. Özəl sektorlar və yerli icmalar, həmçinin qeyri-hökumət təşkilatları da bu təşəbbüslərə qatılır.

"Yaşıl iqtisadiyyat" və "circuler economy" (dairəvi iqtisadiyyat) yanaşmaları, resursların təkrar istifadəsi və iqtisadi modellərin dəyişdirilməsi məsələlərində xüsusi əhəmiyyət kəsb edir. Dünyanın müxtəlif yerlərində həyata keçirilən yerli təşəbbüslər, daha böyük qlobal hədəflərə doğru atılmış mühüm addımlardır.

Qarşılıqlı əlaqədə olarkən və yalnız birlikdə sosial ədalətin təmin edilməsi, təbii sərvətlərin qorunması və iqtisadi inkişafın sürətləndirilməsi mümkün olacaqdır. Hər bir ölkənin öz inkişaf modelinin seçməsi ilə yanaşı, bu modelin qarşılıqlı əməkdaşlıq və qlobal məsuliyyət prinsiplərinə uyğun olması dayanıqlı və ədalətli həmçinin, davamlı bir dünya yaratmağa xidmət edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress,2011,440 s.
2. Hacıyev F.Ş. Azərbaycan Respublikasında ixrac potensialının stimullaşdırılmasında vergitutma amilləri//Azərbaycanın Vergi jurnalı, Şamaxı: Azərbaycan, 2017, №1(133). 37-50 s.
3. Hacıyev F.Ş. Azərbaycanda strateji yol xəritələrinin gerçəkləşməsində ixrac potensialının təhlili və inkişaf perspektivləri// İqtisadiyyat qəzeti, Bakı: Azərbaycan,2017,3 s.
4. Meybullayev M.X. Makroiqtisadiyyata giriş. Bakı: İqtisadiyyat Universiteti, 2011, səh 481.
5. Sakit Hüseynov "Davamlı inkişaf və ekoloji problemlər" Bakı.2002.
6. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisadiyayt Universiteti,2011,542 s.
7. Məmmədov Q.Ş. Xəlilov M.Y. Ekoloqların məlumat kitabı. "Elm" nəşriyyatı. Bakı 2003, 516s

8. U. Ələkbərov. Davamlı İnsan İnkişafı və ekoloji sivilizasiyanın əsasları. Ali məktəblər üçün dərslik, Bakı "Təhsil" 2013,224 səh.

9. U. Ələkbərov. İnsan inkişafının əsasları. Ali məktəblər üçün dərslik. Bakı "Azpoliqraf", 2016,208s.

**Chilanay Ramiz HAJİMAHMUDOVA**
Western Caspian University Master

## CURRENT STATE OF INTERNATIONAL COOPERATION OF AZERBAIJAN IN THE FIELD OF SUSTAINABLE AND SUSTAINABLE DEVELOPMENT

Abstract

This article analyzes the current state of Azerbaijan's cooperation with international organizations and the progress made in the field of sustainable development. Sustainable and sustainable development is one of the main global challenges facing the countries of the world. It addresses not only economic and environmental issues, but also social and humanitarian issues.

Acting as an independent and reliable partner in the international world, Azerbaijan has participated in many global initiatives aimed at promoting sustainable development and is currently continuing to do so.

During the writing of the work, Azerbaijan's cooperation with international organizations in the field of sustainable and sustainable development was widely discussed. Contributions of international organizations and Azerbaijan on sustainable and sustainable development have been included. The article is intended for those who study in the field of economics of Higher Education Institutions.

**Key words**: international cooperation, sustainable development, international organizations

**Чиланай Рамиз кызы ХАДЖИМАХМУДОВА**
Western Caspian University магистрант

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА В ОБЛАСТИ УСТОЙЧИВОГО И УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Резюме**

В данной статье анализируется современное состояние сотрудничества Азербайджана с международными организациями и прогресс, достигнутый в сфере устойчивого развития. Устойчивое и устойчивое развитие является одной из главных глобальных задач, стоящих перед странами мира. Он затрагивает не только экономические и экологические проблемы, но также социальные и гуманитарные вопросы.

Выступая в качестве независимого и надежного партнера в международном мире, Азербайджан участвовал во многих глобальных инициативах, направленных на содействие устойчивому развитию, и в настоящее время продолжает это делать.

В ходе написания работы широко обсуждалось сотрудничество Азербайджана с международными организациями в сфере устойчивого и устойчивого развития. Включены вклады международных организаций и Азербайджана в устойчивое и устойчивое развитие. Статья предназначена для тех, кто обучается по направлению «Экономика» в высших учебных заведениях.

**Ключевые слова:** международное сотрудничество, устойчивое развитие, международные организации